# İbtidai sinif şagirdlərinin idraki maraqlarının inkişaf etdirilməsi haqqında

**Günel İsrafilova**
*fəlsəfə doktoru proqramı üzrə dissertant,*
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*
**E-mail:** Israfilova899@mail.ru

**Rəyçilər:** p.ü.e.d., prof. M.İ. İlyasov,
p.ü.f.d. M.Ə. Zamanova

**Açar sözlər:** təhsil, təlim, məktəb, şagird, idrak, maraq, ibtidai sinif
**Ключевые слова:** образование, обучение, школа, ученик, познание, интерес, начальная школа
**Key words:** education, training, school, cognition, interest, primary school

Müasir təhsil prosesində iştirak edən və uşaqlarla işləyən istənilən insan başa düşür ki, ilbəil məktəbdə şagirdləri idrak fəaliyyətinə cəlb etmək mürəkkəbləşir. Çünki əvvəllər məktəb şagirdlər üçün dünya haqqında informasiya almağın əsas mənbəyi idi, amma indi isə məktəb şagirdin əsas bilik, bacarıq və vərdiş qazandığı yerdir.

Müasir zamanda uşaq onu maraqlandıran istənilən informasiyanı evdən, İNTERNET şəbəkəsindən müstəqil və ya valideynlərinin köməyi ilə ala bilər. Məktəb özünün birinci növbədə duran təyinatını itirir, müəllim müasir dünyada köməkçi və rəhbər kimi çıxış edir.

Əvvəlki illərdə məktəbin birinci sinif şagirdlərinin məktəbdə öyrəndikləri bilik, bacarıq və vərdişlərə müasir birinci sinif şagirdləri əsasən elementar da olsa malik olurlar. Belə olan halda isə şagirdləri maraqlandıran məlumatların asanlığı onları biliklərin əldə edilməsi prosesindən uzaqlaşdırır və uşaqların təlimə motivasiyasının səviyyəsinin aşağı düşməsinə səbəb olur. Məhz buna görə də müəllim müxtəlif metodlardan stimullaşdırma və şagirdlərin idrak marağını artırmaq üçün istifadə etməlidir.

Kiçikyaşlı məktəblilərin idrak marağının inkişaf etdirilməsi problemi müasir məktəbin aktual problemlərindəndir. Pedaqogika elmi isbat etmişdir ki, bu problemin nəzəri işlənməsi və onun praktikada tətbiq olunması zəruridir. Bu problemin aktuallığı onunla izah olunur ki, təlimin metodikası daha çox öyrənənlərin şəxsiyyətinə müraciət edirlər.

Təlim prosesində idrak marağı məktəblinin təlimə, fəaliyyət prosesində bir və ya bir neçə fənnin pedaqoji dərk etməsi ilə ifadə olunur.

Əgər problemi daha konkret təyin etsək, onu belə ifadə etmək olar: elə yol olmalıdır ki, onun köməyi ilə şagirdlərin məktəb proqramını tam şəkildə mənimsəməsinə nail olmaqla, şagirdlərdə idraki imkanlarının formalaşmasını təmin edilsin və bu zaman yorulmaya yol verilməsin. Məhz bu məsələ məktəb qarşısında çox kəskin şəkildə qoyulub. Bunun optimal həlli yollarını da məktəb tapmalıdır.

İbtidai siniflərdə şagirdlərin müvəffəqiyyətlə oxumaları üçün idrak maraqlarının böyük əhəmiyyəti vardır. Şagirdlərdə müxtəlif maraqlar olur. Məktəb təlimi üçün ən əhəmiyyətlisi idrak maraqlarıdır. Bu marağa malik şagirdlər üçün təlim prosesi cəlb edici, asan fərəhli olur, həm də onlar dərsi dərin, hərtərəfli başa düşərək mənimsəyirlər. Bu da şagirdin geri qalmamasına səbəb olur. Ümumiyyətlə, maraqlar, adamı, elmi daha dərindən dərk etməyə yönəldir. Buna görə də şagirdlərdə maraqları inkişaf etdirmək vacibdir.

Yaradıcılıq – insanın fəaliyyətidir, bunun nəticəsi yeni materialların yaradılmasıdır.

Yaradıcılıq insanda motivin, bacarıqların, bilik və vərdişlərin olmasını fərz edir.

Şagirdlərin yaradıcılıq qabiliyyətinin inkişaf etdirilməsi – cəmiyyətin, həyatın, böyüməkdə olan nəslin təlim və tərbiyəsinin praktikasıdır. Müasir pedaqogika və psixologiya müəllim üçün elə bir tələb qoyur ki, o, şagirdlərdə maraq, fəallıq, yaradıcı yanaşma tərbiyə etmədən onları öyrədə bilməz.

Şagirdlərin çox hissəsində fənlərə marağın yaranması, baş qaldırması tədris işinin necə qurulmasından çox asılıdır. Dərsdə hər bir şagirdin həvəslə işləməsinə, fəal olmasına çalışaraq şagirdlərdə idrak maraqlarının baş qaldırması və yaranmasında didaktik oyunlardan, əyləncəli və məntiqi çalışmalardan istifadə edilməsi əhəmiyyətlidir. Şagirdlərin bu və ya digər fənlərə qarşı meyl və maraqları kiçik yaşlardan formalaşmağa başlayır. Bu dövrdən başlayaraq fənlərin cəlbedici tərəflərini şagirdlər qarşısında açmağa çalışmaq lazımdır.

Artıq ibtidai siniflərdən şagirdlərdə öyrənməyə daxili arzu, niyyət, məqsəd yaratmaq lazımdır. İnamla demək olar ki, şagirdlərdə yaradıcılıq qabiliyyətinin inkişaf etdirilməsi məsələsi ondan ibarətdir ki, onlarda ruhdan düşməyə imkan verməmək, əksinə, elə bir yüksəlməyə nail olmaqdır ki, bu yüksəliş heç vaxt sönməsin.

Yaradıcılıq qabiliyyətini inkişaf etdirmək üçün ən yaxşı yol məcbur etdirmədən idrak marağının inkişaf etdirilməsidir. İdrak marağının fəaliyyəti və onun şagirdin fəaliyyətinə və şəxsiyyətinə təsiri çoxmənalıdır.

Hər bir sağlam uşağa əqli fəallıq məxsusdur. Kiçik yaşlı məktəblilərdə əqli fəallıq bilavasitə maraqla bağlıdır, bu isə gələcək tədqiqatçılığın əsasını təşkil edir. Uşaqda hər şeyi bilmək həvəsi yaradıcı bacarıqların inkişafının daimi stimuludur.

Uşaq məktəbə ailədə və bağçada aldığı həyat təcrübəsi və bilikləri ilə gəlir. Onların bir çoxu oxuya və saya bilir, sadə məsələləri həll edir. Əsas ondan ibarətdir ki, parta arxasına dünənki hər şeylə maraqlanan, həvəsinin sərhəddi sanki olmayan uşaqlar əyləşir. Uşağın hər şeyi bilmək həvəsi onun çoxlu sayda suallar verməsi, bu isə onun idrak və yaradıcı inkişafının güclü mənbəyidir. Müəyyən vaxt keçəndən sonra biz görürük ki, uşaqlar sual verməyi dayandırırlar. Bu niyə belə olur? Niyə uşaqların yaradıcı fəallığı sönür?

Uşaqların sualları – onların idrak tələbatının və öyrənməyə həvəsinin parlaq göstəricisidir. Onların verdiyi suallara görə müəllimlər uşaqların idrak fəallığını, dünya haqqında təsəvvürlərini bilməyə imkan verir.

Dərsdəki tipik ünsiyyət xarakteri olan – “müəllimin sualı – şagirdin cavabı” kiçik yaşlı məktəblini sualın cavabını tapmağa ciddi istiqamətləndirir.

Amma dərslər müəllimlərin suallarının təhlili göstərir ki, onlar əsasən yaddaşa hesablanmış suallardır, yəni uşaqların proqram materialını necə mənimsədiklərini aşkar etmək üçündür.

Şagirdləri müəllimləri ilə mübahisə etməyə cəlb etmək çox çətin olur. Şagird əvvəlcədən müəllimin dediyi ilə razılaşır. Bu ənənə çox uzun zaman davam edir, bu isə onları sərbəst yaradıcı, müstəqil düşünmədən təcrid edir. Dərsdə əlverişli psixoloji ab-hava yaradılmasında əsas rol müəllimindir. Əgər müəllim şagirdlərin yaradıcı fəallığının əksinə olarsa, bu uşaqlarda yaradıcılığın sönməsinə səbəb olacaq.

Təlim prosesini təsəvvürün və təfəkkürün inkişafına yönəlmiş şəkildə qurulması prinsipial şəkildə şagirdin mövqeyini dəyişir. Bu isə şagirddə yaradıcı fəaliyyət göstərməsini əhəmiyyətli dərəcədə artırır. Buradan belə alınır ki, təlimi elə qurmaq lazımdır ki, şagird çətinlikləri aşaraq müəyyən gərginliklə də olsa nəticə əldə etsin. Bu mövqe şagirdin gücünə hesablanır.

İdrakın inkişafı – həmişə böyük şəxsi intellektual əməkdir. Bu yadda saxlama üçün çəkilən zəhmət deyil, bu yaradıcı işdir. Bu isə özünü intellektual çalışmaların qoyuluşunda və onun həllinin yeni üsullarını axtarmaqda göstərir. Uşağın idrakı intellektual işin “məhsuludur”.

İdrakın inkişafı yaradıcı prosesin keyfiyyəti kimi özünü göstərir. Uşağın öyrənmək həvəsini dərs prosesində qoruyub saxlamaq mümkün olsa, o yaradıcı qabiliyyətin inkişafı üçün daimi stimul olur. Düzgün təşkil olunmuş təlimdə şagirdlərin marağı nəinki ödənilir, hətta yüksəlir.

Öyrənməyə maraq şagirdlərin gərginliyini götürür, yorğunluğunu azaldır, məsuliyyətini çoxaldır.

Dərsdə əyləncəlik şagirdlərdə maraq yaradır, onların diqqətini cəlb edir, yaradıcı yüksəlişə səbəb olur.

Təlim prosesi müəllimlə və şagirdin qarşılıqlı əlaqəsini göstərir. Əgər müəllim şagirdləri təlim prosesinə qoşması üçün xüsusi iş aparmasa, onda qarşılıqlı əlaqədə yalnız müəllimin fəaliyyəti qalacaq. Müəllim tədris tapşırığı fikirləşə bilər, çalışmalar sistemi hazırlaya bilər, lakin bu çalışmaları şagirdlər yerinə yetirməlidirlər. Bunun üçün aşağıdakılar vacibdir:

1) birgə yaradıcı fəaliyyət, əməkdaşlıq üçün sinifdə mühit yaratmaq;

2) şagirdlərin inkişafı üçün uyğun səviyyə təmin olunmalıdır.

Şagirdlərin inkişafı və onlarda fənnə maraq yaratmağın vacib vasitələrindən biri onların təlim prosesində yaradıcı fəaliyyət göstərmələri üçün şərait yaradılmasıdır. Dərsin imkanları şagirdlərin yaradıcı çalışmaları həll etməsi üçün kifayət qədər məhduddur, amma belə çalışmalardan istifadə etmək lazımdır. Bu məqsədi həyata keçirmək üçün dərsdənkənar işlərdən istifadə etmək daha səmərəli olur. Yaradıcı çalışmaları ev tapşırıqları kimi vermək epizodik xarakter deyil, müntəzəm xarakter daşımalıdır və həftədə 2-3 dəfə verilməlidir.

**Məqalənin aktuallığı.** Kiçikyaşlı məktəblilərin idrak marağının inkişaf etdirilməsi problemi müasir məktəbin aktual problemlərindəndir. Pedaqogika elmi isbat etmişdir ki, bu problemin nəzəri işlənməsi və onun praktikada tətbiq olunması zəruridir. Bu problemin aktuallığı onunla izah olunur ki, təlimin metodikası daha çox öyrənənlərin şəxsiyyətinə müraciət edirlər.

**Məqalənin elmi yeniliyi.** Dərsdə hər bir şagirdin həvəslə işləməsinə, fəal olmasına çalışaraq şagirdlərdə idrak maraqlarının baş qaldırması və yaranmasında didaktik oyunlardan, əyləncəli və məntiqi çalışmalardan istifadə edilməsi əhəmiyyətlidir. Şagirdlərin bu və ya digər fənlərə qarşı meyl və maraqları kiçik yaşlardan formalaşmağa başlayır. Bu dövrdən başlayaraq fənlərin cəlbedici tərəflərini şagirdlər qarşısında açmağa çalışmaq lazımdır.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi.** İbtidai siniflərdə şagirdlərin müvəffəqiyyətlə oxumaları üçün idrak maraqlarının böyük əhəmiyyəti vardır. Məktəb təlimi üçün ən əhəmiyyətlisi idrak maraqlarıdır. Bu marağa malik şagirdlər üçün təlim prosesi cəlb edici, asan fərəhli olur, həm də onlar dərsi dərin, hərtərəfli başa düşərək mənimsəyirlər.

## Ədəbiyyat

1. Актуальные вопросы формирования интереса в обучении / Под ред. Г.И. Щукиной. М., 1984.

2. Фридман Л.М. Формирование познавательных интересов у школьников. М., 1979.

**Г. Исрафилова**

## Пути развития познавательных интересов учащихся начальных классов

## Резюме

Для успешного чтения учащихся младших классов когнитивные интересы имеют

большое значение. У учащихся имеются разные интересы. Познавательные интересы являются основным приоритетом начального обучения. Познавательные интересы для учащихся начальных классов в учебном процессе является привлекательным, так, как очень легко их стимулировать и мотивировать. В процессе начального обучения учащиеся адаптируются, как применять знания, умения и навыки всесторонне.

**G. Israfilova**

## Ways of development of the cognitive interests of primary school students


## Summary

Cognitive interests are of great importance for the successful reading of primary school students. Students have different interests. Cognitive interests are the primary focus of primary education. Cognitive interests for primary school students in the educational process is attractive, as it is very easy to stimulate and motivate them. In the process of elementary education, students adapt how to apply knowledge, skills and skills comprehensively.


**Redaksiyaya daxil olub:** 03.04.2019